


# ŞƏRQ qapısı

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 222 (23.864)

30 noyabr 2021-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Noyabrın 28-də Türkmənistanın paytaxtı Aşqabad şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) XV Zirvə Toplantısı keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev toplantıda çıxış edib. Çıxışda bildirilib ki, Azərbaycan İƏT-in fəal üzvüdür. İƏT-ə üzv dövlətlərlə münasibətlərimiz dostluq və qarşılıqlı hörmətə əsaslanır. Dövlətimizin başçısı Azərbaycanın nailiyyətlərinin beynəlxalq qurumlar tərəfindən yüksək qiymətləndirilməsindən danışıb. Qeyd olunub ki, Azərbaycan pandemiya ilə mübarizə sahəsində qlobal səylərin səfərbər edilməsi üçün mühüm addımlar atmış, işğaldan azad edilmiş ərazilərin bərpasına 2022-ci ildə 1,3 milyard ABŞ dolları miqdarında vəsait ayrılması planlaşdırılmışdır.

Noyabrın 28-də Aşqabadda Prezident İlham Əliyevin Türkiyə Respublikasının, Pakistan İslam Respublikasının, İran İslam Respublikasının, Tacikistan Respublikasının prezidentləri ilə görüşləri olub.

***

Noyabrın 28-də Rusiyanın “Rossiya-1” telekanalında efirə gedən “Moskva.Kreml.Putin.” verilişində Rusiya Federasiyasında işgüzar səfərdə olarkən Prezident İlham Əliyevdən Soçi hava limanında bu veriliş üçün alınan müsahibə yayımlanıb.




## Naxçıvan teatrında “Müfəttiş” əsəri tamaşaya qoyulub





Noyabrın 27-də Naxçıvan Dövlət Musiqili Dram Teatrında dünya şöhrətli rus yazıçısı Nikolay Vasilyeviç Qoqolun “Müfəttiş” əsəri əsasında hazırlanmış eyniadlı tamaşanın nümayişi olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tamaşaya baxmışdır.

XIX əsr dahi rus realist yazıçılarından olan Nikolay Vasilyeviç Qoqolun yaradıcılığının ən səciyyəvi cəhətlərindən biri təsvir etdiyi surətlərin reallığı əks etdirməsi, insanların daxili aləmini, onların mənəvi dünyasındakı ziddiyyətləri əsərlərinin əsas süjet xəttinə çevirməsidir. Müəllifin “Müfəttiş” komediyası da bu baxımdan xüsusi qeyd olunmalıdır. Əsər komediyanın klassik nümunəsidir. Çar Rusiyasının kiçik bir əyalət şəhərində imperiyanın iç üzünü açıb gülüş hədəfinə çevirən Qoqol tamahkar, tənbəl və bacarıqsız çar məmurlarını satira hədəfinə tutur.



Xalq artisti Kamran Quliyevin rejissoru olduğu tamaşanın rəssamı Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Səyyad Bayramov, musiqi tərtibatçısı Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi İmamqulu Əhmədovdur. Xalq artistləri Rza Xudiyev, Rövşən Hüseynov, Əməkdar artistlər Əli Əliyev, Behruz Haxverdiyev, Əbülfəz İmanov, Səməd Canbaxşıyev, aktyorlardan Zakir Fətəliyev, Zəminə Məmmədova, Ələsgər Quliyev, gənc aktyorlar Səyyad Məmmədov, Anar Eyvazov, Şölə Alışova, Uğur Nəsirli və Məmməd Mehdiyev yaratdıqları obrazlarla əsərin ideyasını tamaşaçıya dolğun çatdırmışlar.

Tamaşadan sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov səhnə arxasına keçərək yaradıcı heyətlə görüşmüşdür.

Ali Məclisin Sədri uğurlu tamaşa münasibətilə kollektivə təşəkkür edərək demişdir: Rejissor işi, aktyor seçimi və musiqi tərtibatı səhnə əsərinin uğurla təqdim olunmasına imkan verdi. Bu əsərin prototipi Cəlil Məmmədquluzadənin “Ölülər” və İsi Məlikzadənin “Qatarda” əsərlərində də vardır. Qoqolun “Müfəttiş” əsəri və əsərdəki obrazlar da “Ölülər” əsərindəki kimi ölməz və bütün dövrlər üçün aktualdırlar. Əsər yazıldığı dövrdə qadağan olunmuş, ancaq sonradan Peterburqda tamaşaya qoyulmuşdur. Tamaşadan sonra Qoqola verilən “Əsərdə nə üçün heç bir müsbət obraz yoxdur?” – sualına o, aydın və konkret cavab vermişdir: “Vardır! Bu, namuslu və alicənab şəxs – gülüşdür!”

“Teatr həyatı öyrədən məktəbdir”, – deyən Ali Məclisin Sədri bildirmişdir ki, teatr, tamaşa hər zaman lazımdır. Bütün dünyada yayılmış pandemiya bir sıra çətinliklər yaradıb. Buna baxmayaraq, həyat davam edir. Yeni tamaşalar hazırlanmalı və nümayiş olunmalıdır. Çünki səhnə əsərinə verilən ən böyük qiymət də tamaşaçı alqışıdır.

Ali Məclisin Sədri bundan sonra da uğurlu tamaşaların səhnəyə qoyulacağına əminliyini bildirmiş, kollektivi təbrik etmişdir.

Teatrın direktoru, Xalq artisti Rza Xudiyev kollektiv adından minnətdarlıq edərək demişdir ki, pandemiya dövründə Naxçıvan Dövlət Musiqili Dram Teatrı öz fəaliyyətini dayandırmadı, məşqlər davam etdirildi, repertuara yeni əsərlər daxil olundu və onlayn formada tamaşaçılara nümayiş edildi. Tamaşada gənc və təcrübəli aktyorlar birlikdə çalışıblar. Növbəti repertuarlarımızda da tamaşaçı zövqünü oxşayan əsərlər təqdim edəcəyik.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**




## Sahibkarlığın inkişafına diqqət göstərilir

Ümummilli lider Heydər Əliyevin müəllifi olduğu iqtisadi inkişaf strategiyasının ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında sahibkarlıq fəaliyyəti üçün geniş imkanlar açmışdır. Muxtar respublikada özəl bölməyə dövlət dəstəyi artırılmış, biznes subyektlərinin qeydiyyat və lisenziya sistemi sadələşdirilmiş, əlverişli investisiya mühiti yaradılmışdır. Hazırda muxtar respublikada ümumi daxili məhsul istehsalının 88 faizi özəl bölmənin payına düşür. Özəl bölmənin inkişafını stimullaşdıran başlıca amillərdən biri də sahibkarlıq subyektlərinin əlverişli maliyyə resurslarına çıxışının təmin edilməsidir. Bu gün təsərrüfatçılıq fəaliyyəti üzrə banklar tərəfindən verilən kreditlərin ən aşağı orta faiz dərəcəsi muxtar respublikada tətbiq edilir.

Sahibkarlıq fəaliyyətinin davamlı olaraq dəstəklənməsi, yeni istehsal müəssisələrinin yaradılması nəticəsində muxtar respublikada 384 növdə məhsul istehsal olunur ki, bunun da 127 növü ərzaq, 257 növü isə qeyri-ərzaq məhsullarıdır. Hazırda əhalinin 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbatı tamamilə yerli imkanlar hesabına ödənilir.

**Xəbərlər şöbəsi**

## Azərbaycan Şahmat Federasiyasının hesabat-seçki konfransı keçirilib

*Noyabrın 26-da Azərbaycan Şahmat Federasiyasının hesabat-seçki konfransı keçirilib.*

Gənclər və İdman Nazirliyinin inzibati binasında keçirilən tədbirdə konfrans iştirakçılarını salamlayan nazir Fərid Qayıbov onlara uğurlar arzulayıb.

Hesabat-seçki yığıncağında Azərbaycan Şahmat Federasiyasının fəaliyyəti barədə hesabat məruzəsi dinlənilib. Sonra federasiyanın rəhbərliyinə yeni seçkilər keçirilib. Uzun illər federasiyada vitse-prezident vəzifəsində çalışan, eyni zamanda Beynəlxalq Şahmat Federasiyasının (FIDE) vitse-prezidenti olan Mahir Məmmədov səsvermə nəticəsində dörd il müddətinə federasiyanın prezidenti seçilib.







Faiq Həsənov federasiyanın birinci vitse-prezidenti, Seymur Talıbov isə vitse-prezident seçilib. Yeniyetmələr arasında dünya çempionu, beynəlxalq qrossmeyster İlahə Qədimova isə baş katib təyin edilib.

Azərbaycan Şahmat Federasiyasının prezidenti və vitse-prezidenti həm də İcraiyyə Komitəsinə üzv kimi təsdiqləniblər. Eyni zamanda Sərxan Həşimov və beynəlxalq qrossmeyster Cahangir Ağarəhimov İcraiyyə Komitəsinə üzv seçiliblər.

Azərbaycan Şahmat Federasiyasının yeni prezidenti Mahir Məmmədov tədbirdə çıxış edərək qarşıda idmançılarımızı bir sıra nüfuzlu yarışların gözlədiyini bildirib. O, gələcəkdə daha böyük uğurların qazanılması üçün lazımi işlərin görüləcəyini vurğulayıb. Federasiya prezidenti iclasda qaldırılan məsələlərin yerinə yetirilməsi üçün səylə çalışacaqlarını qeyd edib.

Sonra Sloveniyada komandalar arasında Avropa çempionatında bürünc medal qazanan qadın şahmatçılardan ibarət Azərbaycan yığmasının üzvləri, eləcə də kişilərdən ibarət millimizin üzvü Nicat Abasova pul mükafatları təqdim edilib, onlara gələcək yarışlarda uğurlar arzulanıb.

**AZƏRTAC**

---

### “Şərq qapısı” – 100

## Əsrin əsəri, yaxud mənim ən böyük və ən açıq tribunam

*Ön söz yerinə*

Hər zaman düşünmüşəm ki, həyatımızda var olan və varlığımızı davam etdirməyimizdə rol oynayan hər nəsnənin bir həyatı vardır. Bu, anamız, atamız da ola bilər, yediyimiz-içdiyimiz də ola bilər, geyindiyimiz, gördüyümüz də ola bilər, oxuduğumuz, yazdığımız da ola bilər. Təkcə elə sadaladıqlarımdan ata-anamız bizim dünyaya gəlməyimizdə rol oynayırsa, yeyib-içdiklərimiz bioloji varlığımızın inkişafına təsir edir, geyindiklərimiz iqlimə qarşı dözümlülüyümüzü təmin edirsə, gördüklərimiz baxış pəncərəmizi formalaşdırırsa, oxuduqlarımız dünyagörüşümüzü artırırsa, yazdıqlarımız da özümüzü ifadə etməyimizə şərait yaradır. Beləcə, həyatımızda rol oynayan sadalamadığım bir çox ünsür və məqamlar bizi var olduğumuz müddətcə daha kamil bir şəxsiyyət olmağa gətirib çıxarır. Demək ki, onların da bir həyatı var.

*Cavanlar həyatının füqəra səsi məhz Şərqin qapısında yol kimi öz təsdiqini tapdı*

Düşünün ki, 100 yaşınız var. Bu birəsrlik yolu qət edərkən hansı mərhələlərdən keçdiyinizi də gözünüz önünə gətirin. İndi mən ömrünün yüzilliyini tamamlayan birinin həyatını düşünürəm: “Şərq qapısı” qəzetinin. Ulu əcdadı “Əkinçi” olan qəzet “Cavanlar həyatı”yla ilk cavanlığını yaşamağa başlamışdı. Amma həyatın qanunauyğunluqları onu da ilk günlərdən zəhmətə qatlaşmağa məcbur etmişdi. Beləcə, “Füqəra səsi”nə çevrilmişdi. Bir füqəranın həyatı asan və rahat olmadığı üçün səsi də bir əsr əvvəldən öz ötkəmliyini sübut edə bilmiş, hətta bir əsr sonraya da gəlib çatacaq avazını hamıya eşitdirməyi bacarmışdı. Əziyyətinin və zəhmətinin nəticəsində yola çevrilmişdi. Yola çevrilə bilmək heç kimə asan gəlməsin. Yola çevrilə bilmək üçün iz olmalısan, cığırın görünməlidir. Cavanlar həyatının füqəra səsi məhz Şərqin qapısında yol kimi öz təsdiqini tapmağı bacardı, “Şərq qapısı”na çevrildi. Yolunu tapdığından təlaşa düşənlər onu ideologiyanın əsgəri donunda təqdim etməyə çalışdılar: “Sovet Naxçıvanı” qəlibinə salmağa cəhd edib, bu ad altında göstərdilər. Amma qəzet özünün ən milli və ən məhsuldar dövrünü məhz bu adın altında cəsarətlə göstərməyə nail oldu. Hələ onu rus dilində də danışdırdılar. Hansı dildə danışmasından asılı olmayaraq, o özünü Azərbaycan düşüncəsində təqdim etdi. Ötən əsrin son onilliyində isə böyük bir ideologiya ölkəsinin ilk müstəqil qəzetinə çevrilərək yenidən öz doğma adına qovuşdu – “Şərq qapısı” kimi yenidən Şərqdə yazı adamlarının üz tutduğu qapıya çevrildi.

*Mənim ilk qəzetim: Gəmiqaya daşları*

Niyəsə bu yerdə “Günəş Şərqdən doğur” məşhur ifadəsi yaddaşımı döyəcləyir. Bəli, Günəş Şərqdən doğur. Dünya tarixində bir çox kəşflər, icadlar, insan həyatını asanlaşdıran, ona istər mədəni, istər iqtisadi, istərsə də intellektual baxımdan xidmət edən əksər kəşflər məhz Şərqin payına düşür. Şərqdən doğur. İlk yazıları xatırlayıram. Mixi yazılarını... Orxon-Yenisey daş kitabələrini... Onlar, sizcə, bizim ilk qəzetlərimiz deyildimi? Çox uzağa getdim, deyəsən. Bir addımlığımızda Nuhun gəmisinin lövbər saldığı Gəmiqaya ətəklərində ətrafa səpələnmiş daşlar üzərindəki yazılar, piktoqrafik şəkildə ifadə edilən ideolojik mətnlər, sizcə, ilk qəzet deyilmi? Nədir ki, qəzet? Bu günün hadisələri və bugünkü düşüncələrimiz haqqında sabah nəşr olunacaq səhifələrində oxuculara, yüzlərə, minlərə, milyonlara xəbər çatdırma, fikir bildirmə arzusu deyilmi qəzet? Nuhun gəmisindən enən insanların daşlara cızdıqları nə idi bəs? Bu deyildimi? Tufan boyunca keçdikləri yolu özlərindən sonra gələn nəsillərə çatdırma arzusu, istəyi deyildimi? Yaxud Nuhun səfər yoldaşlarının ilk günlərdə qarşılaşdıqları mənzərələri daş üzərində həkk etmək istəklərini ideolojik mətnlər adlandırsaq, səhvmi etmiş olarıq?! Qətiyyən yox. Beləcə, ibtidai insanın müasir dövrün termini ilə adlandırdığımız qəzeti həmin daşlar ola bilməzdimi? Bir haşiyə çıxıb fikrimi daha dolğun ifadə etmək üçün keçmişlə gələcəyi müqayisələndirək. Bu gün internet əsrində sayt jurnalistikası, elektron qəzet ifadələri işlədilirsə, niyə də keçmişdəki həmin mətnləri daş qəzetlər adlandırmayaq!?

Mənim ilk qəzetim Nuhçıxanda, Gəmiqaya ətəklərində, Qaranquş yurdunda ilk redaktorluğunu Nuh Peyğəmbərin etdiyi həmin o daş yazılardır. O daş yazılar ki bir zamanlar, bəlkə də, böyük bir qayanın üzərində yazılmışdı. Sonralar təbiətin amansızlığına məruz qalaraq parçalanmış, ətrafa səpələnmiş, dağılmışdır. Qəzet şəklində düşünüb ifadə etsək cırılıb, parçalara bölünmüşdür. Əgər Gəmiqayadakı o daşları həssaslıqla birləşdirib bir-birinə yapışdıra bilsək, birsəhifəlik mətndən ibarət olan dünyanın ilk qəzetini daha rahat və ardıcıl mətn kimi oxuya bilərik.




Bəşəriyyətin ikinci atası Nuh bəşəriyyətin birinci qəzetinin də redaktoru idi. Həm də o qəzet Şərqdə ortaya çıxmışdı. Nuhçıxanda – Naxçıvanda. Eyni zamanda qapı rolunu da oynamışdı. Yuxarıda YOLdan danışmışdım. QAPI da yolun ya əvvəlidir, ya da sonu. “Şərq qapısı”ndakı QAPI Nuhun açdığı yolun başlanğıcı idi. Yeni bir dünyaya, yeni bir həyata, yeni bir mədəniyyətə, yeni bir başlanğıca açılan qapı. Beləcə, “Şərq qapısı” ŞƏRQ amili ilə QAPI məqamını özündə ehtiva etməklə adını doğrultmaq üçün ətrafına qələmlər – qədəmlər, imzalar – insanlar cəlb etməyi bacardı. O qədəmli insanların, qələmli imzaların sayəsində “Şərq qapısı” 100 yaşlı qocaman bir tarix kitabı kimi ağıryüklü sanbal mənbəyinə çevrildi. Yüz ildə yüzilliklərini öz səhifələrində əks etdirməyə nail oldu. Burada daha bir haşiyə çıxmağa, həm də geniş bir haşiyə çıxmağa ehtiyac var:

*Son əsrin son rübü*

Bəlkə də, dörd sözdən ibarət oldu haşiyəm. Lakin son əsrin son rübü “Şərq qapısı” üçün çox böyük əhəmiyyətə malik olan dövrü özündə əks etdirir. Əsl mənada, 100 yaşlı qocanın ömrünün ən rəngarəng illəri məhz bu dövrə təsadüf etdi. Təkcə qəzetin sanbalının artmasını nəzərdə tutmuram. Burada texnologiya əsrinin tələblərinə uyğun olaraq müasir avadanlıqlarla təminat, yaxşı iş şəraiti, yeni bina, yeni çap ləvazimatları, rəngli səhifələr, yeni format, hərtərəfli qayğı ilə təmin olunmuş yeni imzalar və bir çox yeniləri sadalamaq olar ki, onların hamısı məhz son əsrin son rübünün açıq-aydın görünən və hiss edilən uğurlarının nəticəsidir. Bunların hamısı qəzetə dövlət diqqətinin artırılması, imzalanmış dövlət sənədlərinin rolu ilə mümkün oldu. Bu diqqət və qayğı sayəsində yüz yaşını təmtəraqla qeyd etməyə hazırlaşan “Şərq qapısı” 100 yaşlı qocadan daha çox birin yüzə əmsalı ilə götürsək, məncə, ömrünün ilk doğum gününü qeyd etməyə hazırlaşan ən xoşbəxt biri təsiri bağışlayır. Əslində, elə belə də olmalıdır. Gələcək nəsillər onun 200 illiyində iki yaşını, 300 illiyində üç yaşını, bu ardıcıllıqla 500-də beş yaşını, 1000-də on yaşını da qeyd edəcəklər. Neçə yaşının qeyd olunmasından asılı olmayaraq, bir yaşını – bir əsri geridə qoyan qəzetin yubileyinə şahidlik edənlər kimi bizim bəxtimizin də gətirdiyini və xoşbəxt insanlar olduğumuzu etiraf etməliyəm.

*Ən böyük və ən açıq tribuna*

Özümü bu xoşbəxt insanların cərgəsində görməkdən olduqca məmnunam. Həm də ona görə ki, “Şərq qapısı” qəzeti mənim əmək fəaliyyətimin başlandığı yerdir. “Şərq qapısı” qəzeti mənim ilk qazancımda imzası olan yerdir. “Şərq qapısı” qəzeti mənim formalaşmağıma ən çox təsir göstərən amildir. Bəlkə də, “Şərq qapısı” redaksiyasına gələndək əlimdə qələm var idi. Lakin o qələmimin itiləşməsində, kəsərinin artırılmasında, sözümün daha geniş auditoriyaya çatdırılmasında, düşüncələrimin insanlara təlqin edilməsində “Şərq qapısı” ən böyük və açıq tribuna oldu.

Bu yazını qələmə alarkən arxivimdəki qəzetləri gözdən keçirdim. Səhifələdim, yazılarımın kataloquna göz atdım. İlk dəfə 2002-ci ilin oktyabr ayında adımın bir xəbər materialında çəkildiyi bu qəzetin səhifələrində minə yaxın “Elxan Yurdoğlu” imzasının var olması da məhz “Şərq qapısı” məktəbində aldığım dərslərin nəticəsidir, “Şərq qapısı” müəllimliyinin tələbkarlığıdır, “Şərq qapısı” doğmalığının təəssübkeşliyidir, “Şərq qapısı” böyüklüyünə arxayınlığımdır, “Şərq qapısı” ocağına inamımdır.

2003-cü ilin avqust ayında “Bu yola çıxmışıqsa, yükümüz ağır olacaq” adlı yazıyla çıxdığım yolda yükün nə qədər ağır olsa da, əlimdən “Şərq qapısı” kimi qüdrətli birinin yapışması bu yük qarşısında çətinlik çəkməyəcəyim inamını da təlqin edirdi.

Bu qəzetdə dörd ildə dörd ayrı vəzifədə çalışdım. Müxbir kimi işə başladığım “Şərq qapısı”nda şöbə müdiri, məsul katib müavini, məsul katib vəzifələrinə irəli çəkildim. İstər müxbir, istər şöbə müdiri, istər məsul katib müavini, istərsə də məsul katib işlədiyim dövrdə iki ayrı redaktorla, onlarla peşəkar və gənc qələm sahibləri ilə birlikdə çalışdım. Muxtar respublikanın salnaməsi olan qəzetin əvvəlki illərdə nəşr olunmuş nömrələrini maraqla səhifələdim, qəzetin özünəməxsus qoxusunu tarixin məlumatları və illərin tozu ilə birlikdə ciyərlərimə çəkdim. 23 yaşlı gənc jurnalist kimi yoluma işıq tutan qəzetin yazılarında Naxçıvanın, muxtar respublikamızın, onun paytaxt şəhərindən ucqar kəndinə kimi olan hər bölgəsinin keçmişini müşahidə etmək, müqayisə etmək, nəticələr çıxarmaq mənə həm yol göstərirdi, həm qələmimi püxtələşdirirdi, həm düşüncələrimi formalaşdırırdı, həm baxış bucağımı genişləndirirdi, həm də biliklərimi artırır, məlumat bazamı qəzetin tarixiylə birlikdə tarixin yaşı qədər genişləndirirdi.

*Qəzetçi olmağın üstün tərəfləri*

Qəzetçi olmağın üstün tərəfləri nədir? Qəzetçi olmaq hər bir insanın içində olan düşüncələrini, fikirlərini başqalarına da çatdırma imkanı əldə etmək deməkdir. Qəzetçi olmaq bəzən bir yazını sabahkı nömrəyə çatdırmaq üçün özünü yemək-içməkdən məhrum edib təkliyə çəkiləcək qədər fədakarlığa öyrətməkdir. Qəzetçi olmaq öz doğma dilinin hər bir kəlməsinə orfoqrafik cəhətdən daha kamil şəkildə bələd olmaq deməkdir. Qəzetçi olmaq ali təhsilinin hansı ixtisas olmasından asılı olmayaraq, bütün sahələr haqqında da ən incə məqamlarına kimi bilik yiyəsinə çevrilmək deməkdir. Qəzetçi olmaq iş saatının səhər doqquzda başlayıb axşam altıda bitməsi yox, başını yastığa qoyanda da növbəti yazılar haqqında düşünmək deməkdir. Qəzetçi olmaq bir yazının nöqtəsini qoyan kimi dərindən nəfəs dərməkdən daha çox, həmin nəfəs dərimində növbəti yazının ilk cümləsini qurmaq deməkdir. Qəzetçi olmaq əkinçiylə əkinçi, sahibkarla sahibkar, bağbanla bağban, əsgərlə əsgər, müəllimlə müəllim, məmurla məmur, alimlə alim olmağı bacarmaq deməkdir. Qəzetçi olmaq yağışda islanmamaq, şaxtada donmamaq, qarda üşüməmək, Günəşdə yanmamaq, qaranlıqda görmək, işıqda parıltıya aldanmamaq deməkdir. Qəzetçi olmaq korrektor olmaq, redaktor olmaq, naşir olmaq deməkdir. Qəzetçi olmaq iqtisadçı, ədəbiyyatçı, tarixçi olmaq deməkdir.

*Hər əməkdaşdan nəyisə öyrənmək*

Bütün bu sadaladıqlarımı özlüyündə əxz edən, öz varlığında cəmləməyi bacaran onlarla peşəkar jurnalistlə “Şərq qapısı” qəzetində birlikdə işlədiyim üçün özümü həddindən artıq şanslı və xoşbəxt biri qəbul edirəm. Səxavət Kəngərlidən ictimai-siyasi hadisələri şərh etmə üslubunu mənimsəmək, Sevindik Həmzəyevdən milli-mənəvi dəyərlərə yanaşma tərzini öyrənmək, Cəfərqulu Paşayevdən kənd həyatı və aqrar mövzularda yazı səriştəsini əxz eləmək, Cəfər Kərimovdan təmkinli xarakterlə yanaşı, istənilən mövzudakı hər yazıya bədii publisistika qatmağı götürmək, Akif Axundovdan ədəbi-bədii təhlil bacarığını qazanmaq, Məhəmməd Fərəcovdan xəbər yazma qabiliyyəti əldə etmək, Allahverdi Aqildən kənar əməkdaşlarla işləmə və rəftar etmə mədəniyyətini müşahidə etmək, Məmməd Məmmədovdan siyasi publisistika dərsi almaq, Muxtar Məmmədoğludan redaktə üslubunu götürmək, Məhəbbət Mirzəyevadan qəzetin tərtibatçılığını öyrənmək mənim üçün bu gün də minnətdarlıqla və məmnuniyyətlə xatırladığım “Şərq qapısı” məktəbində aldığım qəzetçilik dərsləri oldu.

***Ey mənim doğma qəzetim, “Şərq qapısı!” Sən özündə min illəri əks etdirən yüzyaşlı əsərsən. Əsrin əsəri. Ömrün Şərqin qapısında əbədiyyən sürsün, avazın füqəra səsindən güc alıb həmişə ucalardan eşidilsin, yolun cavanların həyatı kimi çətinliklərdən qorxmadan daim irəliləsin.***

**Elxan YURDOĞLU**

*Məqalə “Şərq qapısı” qəzetinin 100 illiyi münasibətilə keçirilən yaradıcılıq müsabiqəsinə təqdim edilir.*

"Şərq qapısı" – 100

## Naxçıvanın yerli məhsullarının təbliği "Şərq qapısı" səhifələrində

***Regionların iqtisadi inkişaf səviyyəsi, hər şeydən əvvəl, burada mövcud olan bütün iqtisadi resursların dövriyyəyə cəlb edilməsi ilə daxili istehsal potensialının yaradılması, məşğulluğun təmini ilə ölçülür. Bu mənada, Naxçıvan Muxtar Respublikasının müasir iqtisadi inkişafında daxili ehtiyatlar hesabına yerli istehsal-iqtisadi potensialın yaradılması prioritet istiqamət kimi öz aktuallığını qoruyur. Bu gün muxtar respublikada 384 növdə məhsul istehsal olunması, 350 növdə məhsula tələbatın yerli imkanlar hesabına ödənilməsi də məhz bu istiqamətdə aparılan məqsədyönlü siyasətin nəticəsində mümkün olmuşdur.***




Təcrübə göstərir ki, uğurlu iqtisadi layihələr əksər hallarda bu məqsədlə zəruri olan ehtiyatların və onların əsasında istehsal edilən məhsulların təbliği və tanıtımı ilə reallaşır. Muxtar respublikamızda özəl biznesin təbliği və təşviqi, yerli məhsulların sərgisi, eləcə də kütləvi informasiya mənbələrinin bu vacib işə dəstəyi qarşıya qoyulmuş məqsədlərə çatmağa mühüm töhfə verir. Bununla yanaşı, 2021-ci ildə 100 illik yubileyi qeyd olunan "Şərq qapısı" qəzetinin səhifələrinə nəzər saldıqda bu təbliğatın hələ müstəqillik illərindən xeyli əvvəl vaxtlarda aparıldığını deyə bilərik.

Hazırda Naxçıvanda, əsasən, yerli xammal hesabına yaradılmış çox sayda istehsal sahəsi fəaliyyət göstərir. Müstəqil ölkəmizin inkişaf edən bir regionu olaraq bu, indi adi hal kimi görünsə də, keçmiş ittifaqda mərkəzin maraqları baxımından ucqar regionların belə inkişafı haqqında danışmaq çətin idi. Ancaq buna baxmayaraq, 50-60 il əvvələ qayıdıb qəzet səhifələrinə baxdıqda Naxçıvanın qiymətli təbii sərvətlərinin istifadəsi, onların təbliği haqqında çox sayda yazılara rast gəlirik. Hələ qəzetin 10 yanvar 1969-cu il sayındakı "Naxçıvanın təbii sərvətləri" adlı yazıya nəzər salsaq, görərik ki, ozamankı müəlliflər ekspert fikirlərinə əsaslanaraq Naxçıvan təbiətinin, yeraltı, yerüstü sərvətlərin istifadəsinə çağırıb, öz torpağımızın sərvətinə özümüzün necə sahib ola bilməyimiz haqqında düşüncələrini cəsarətlə paylaşıblar. Yaxud qəzetin 28 aprel 1971-ci il tarixli sayında dərc olunmuş "Naxçıvan markası ilə" başlıqlı yazı isə tamamən günümüzün aktuallığı çərçivəsində tez-tez mətbuatda yayımlanan və ən çox da ixrac məhsullarımızdan bəhs edən bütün bu mövzudakı məqalələrin, bəlkə də, ən birincisidir. Məqalənin dərc olunma tarixinə diqqət yetirsək, burada digər bir maraqlı məqamın da təsadüfi olmadığını görərik.

Buna bənzər digər bir məzmunlu və daha cəsarətli yazı isə qəzetin 28 aprel 1972-ci il tarixli sayındakı "Naxçıvan dünyanı gəzir" adlı maraqlı məqalədir. Yazıda istehsal yeri Naxçıvan olan 40-dan artıq məhsulun keçmiş ittifaqın və hətta xarici ölkələrin istehlakçılarına çatdırıldığı qeyd edilir. Qəzetin 29 iyul 1974-cü il sayında isə "Şad xəbərlər" başlıqlı xəbərdə Naxçıvanın "Badamlı" mineral suyunun keçmiş Almaniya Demokratik Respublikasındakı beynəlxalq yarmarkada uğurla sərgilənməsi və ümumilikdə, Naxçıvanda istehsal edilən bütün mineral suların keçmiş ittifaqın 70 şəhərinə ixrac olunması haqqında məlumatı oxuyuruq. İnsanların milli şüurunun özünəqayıdışı, təbii sərvətlərə sahib çıxma hisslərinin təbliğ olunduğu belə yazılar daha sonra qəzetin 7 noyabr 1976-cı il sayında "Naxçıvan markasının şöhrəti", 7 aprel 1978-ci il sayında "Xələc mərmərinin şöhrəti", 30 avqust 1981-ci il sayında "Duz dağının şöhrəti", 20 oktyabr 1981-ci il sayında "Ordubad konservi şirindir, ləzizdir", 22 iyul 1982-ci il sayında "Buzqov daşı", 19 noyabr 1982-ci il sayında "Naxçıvan" markasının şöhrəti" başlıqları ilə dərc olunub.

Bu gün Naxçıvanda ailə təsərrüfatları forması ilə biznesin təşəkkül tapmasında geniş təcrübə əldə edilib. İnsanların sahib olduğu təbii ehtiyatlardan faydalanmaq üçün aparılan dövlət siyasəti bu sahədə öz bəhrəsini verir və hazırda Naxçıvandakı ailə təsərrüfatları geniş çeşiddə yüksəkkeyfiyyətli məhsullar istehsal edirlər. Keçmişə dönüb qısa nəzər saldıqda isə hələ sovet dönəmində Naxçıvanda yaşayan insanların sahibkarlıq düşüncələrinin mövcud olduğunu və motivlər əsasında qəzetdə yazılar getdiyini görə bilərik. Bu mənada, qəzetin 13 may 1983-cü il tarixli sayındakı "Yardımçı təsərrüfat: dünən, bu gün, sabah" adlı yazı o zamanlar iqtisadiyyatda mühafizəkarlıq buzlarının qırılması ilə formalaşan sərbəst iqtisadi düşüncənin qəzetdəki parlaq bir təbliği idi. Daha sonra belə sərbəst sahibkarlıq çağırışları qəzetin digər saylarında da sıx-sıx rast gəlinməyə başladı.

1980-ci illərin əvvəllərindən başlayaraq keçmiş SSRİ-də kooperativlər yaradılmasına icazə veriləndən sonra hər yerdə olduğu kimi, Naxçıvanda da bu sahəyə ciddi maraq yarandı və bu da "Şərq qapısı" qəzetində geniş mövzuya çevrildi. Bu mənada, Naxçıvanda ilk kooperativin fəaliyyətə başlamasından xəbər verən 5 iyun 1987-ci il tarixli nömrədəki "Ağzınız şirin olsun" adlı yazının rubrikası da olduqca diqqətçəkici idi – "Fərdi əmək, ümumi fayda!" Daha sonrakı nömrələrdə "Kooperativlər, ilk addımlar, imkanlar, problemlər" (10 aprel 1988-ci il), "Müəssisə markası" (14 aprel 1988-ci il), "Kooperasiya tərəqqi yoludur" (7 fevral 1989-cu il), "Naxçıvan dünyaya çıxır" (3 may 1989-cu il) adlı məqalələrə rast gəlmək mümkündür.

1991-ci il sentyabrın 3-də Azərbaycan xalqının həyatında dönüş ili olacaq mühüm bir hadisə baş verdi. Ümummilli lider Heydər Əliyev xalqın təkidli tələbi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin fövqəladə sessiyasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçildi. Bundan sonrakı dövrlərdə ulu öndər Naxçıvanda iqtisadiyyatın inkişafı, yerli istehsalın genişləndirilməsi üçün əvəzsiz xidmətlər göstərmişdir.

Muxtar respublikamızda müasir dinamik inkişafa keçid mərhələsi olmuş 16 dekabr 1995-ci il tarixdə cənab Vasif Talıbovun Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsindən sonrakı dövrdə Naxçıvanda bütün sahələrdə, o cümlədən sahibkarlığın inkişafında da yeni mərhələ başladı. Bundan sonra muxtar respublikada həyata keçirilən məqsədyönlü tədbirlər yerli imkanlar hesabına sahibkarlıq fəaliyyətinin stimullaşdırılması və onun dövlət səviyyəsində dəstəklənməsi üzrə davam etmiş, muxtar respublikanın rəsmi dövlət qəzeti "Şərq qapısı"nda da bu istiqamətdə çox sayda yazılar dərc olunmuşdur.

**✍ Əli CABBAROV**

***Məqalə "Şərq qapısı" qəzetinin 100 illiyi münasibətilə keçirilən yaradıcılıq müsabiqəsinə təqdim edilir.***

## Tələbələrlə görüş olub

*Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri Üzrə Dövlət Xidmətinin əməkdaşlarının Naxçıvan Dövlət Universitetində xidmətin hamiliyinə verilmiş ixtisaslarda təhsil alan tələbələrlə görüşü keçirilib.*

Tədbirdə giriş sözü ilə çıxış edən ali təhsil ocağının rektoru, dosent Elbrus İsayev xidmətin hamiliyinə verilmiş Torpaqşünaslıq və aqrokimya ixtisası üzrə 51, Yerquruluşu və daşınmaz əmlakın kadastr ixtisası üzrə 9, Geodeziya və xəritəçilik mühəndisliyi üzrə isə 9 tələbənin təhsil aldığını diqqətə çatdırıb. Qeyd edilib ki, hamilik tədbirlərinin nəticəsidir ki, tələbələr dərslərdə qazandığı nəzəri bilikləri təcrübədə tətbiq etmək imkanına malik olur və gələcəkdə iş imkanı əldə edirlər.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin rəisi Müslüm Cabbarzadə "Muxtar respublikada dövlət idarəçiliyi sahəsində keçilmiş yol və qarşıda duran vəzifələr" mövzusunda çıxış edib. Xidmətin rəisi ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi ilə bağlı müvafiq sərəncamlarla müəyyənləşdirilmiş vəzifələrin icrası istiqamətində görülən işlərdən danışıb. Qeyd olunub ki, xidmətdə hər tədris ilinin əvvəlindən başlayaraq tələbələrlə intensiv görüşlər keçirilib. Xidmətin bazasında tələbələrin praktik məşğələlər keçmələri təmin edilib, geodeziya-



ölçü avadanlıqlarından ilkin istifadə vərdişləri öyrədilib, həmçinin çöl şəraitində tələbələrin sınaq geodeziya ölçmələrində iştirakı təmin olunub.

Universitetin məzunu və hazırda xidmətin əməkdaşı kimi fəaliyyət göstərən İbrahim İbrahimli gənc mütəxəssislərə dövlət qayğısından danışıb.

Sonda təcrübədə fəal iştirak edən tələbələr xidmətin rəisi tərəfindən təşəkkürnamə ilə təltif edilib, "Torpaq müqəddəs sərvətimizdir" adlı filmin nümayişi olub.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

## Qadınlarla bağlı həyata keçirilən tədbirlər uğurlu nəticələr verir

***Muxtar respublikada görülən tədbirlər nəticəsində qadınların sahibkarlıq fəaliyyəti ildən-ilə artır. Əgər ötən il 6979 qadın sahibkarlıq fəaliyyətləri ilə məşğul idisə, 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə bu göstərici 11,4 faiz artaraq 7772 nəfər olub. Həmçinin muxtar respublikada 100-ə yaxın qadın ailə təsərrüfatı ilə məşğul olur.***





Qadınların məşğulluqlarının artırılması, ailə təsərrüfatlarının, həmçinin muxtar respublikada gələcəkdə makro və mikrobiznesin inkişafı üçün Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən ötən 2 il ərzində icra edilən sosialyönümlü layihələrdə, ümumilikdə, 128 qadına 86256 manat dəyərində sərmayə kapitalı verilib.

Muxtar respublikada qadınların məşğulluqlarının təmin olunması məqsədilə onlara təlimlərin keçirilməsi və peşə kurslarına cəlb də diqqətdə saxlanılır. 2021-ci ilin ötən dövrü ərzində 183-ə yaxın xüsusi qayğıya ehtiyacı olan ailənin üzvü və məhdud fiziki imkanlı qadınlar üçün toxuculuq peşəsinin öyrədilməsi ilə bağlı təlim keçirilib. Həmçinin ötən dövr ərzində qadınların özünüməşğulluqlarının təmin olunması və istedadlarının üzə çıxarılması məqsədilə sərgi-satışlar, yarmarkalar təşkil edilib. Həmin sərgi-satışlarda, yarmarkalarda, muxtar respublikanın şəhər və rayonlarında fəaliyyət göstərən əl işləri mağazalarında, ümumilikdə, 515 sağlamlıq imkanları məhdud və istedadlı qadınların 32105 manat dəyərində 4320 rəsm, əl işi və ailə təsərrüfatı məhsulları satılıb.

Qadınların müxtəlif peşə sahələrində gündən-günə artan sayları statistik nəticələrdə də özünü göstərməkdədir. Belə ki, cari ilin müvafiq dövrünə olan məlumata əsasən istirahət, əyləncə və incəsənət sahəsində 3392 nəfər çalışır ki, bunların 63,6 faizi qadınlardır. Eləcə də təhsil sahəsində 9931 (ötən ilin müvafiq dövrü ilə müqayisədə 1,5 faiz çox), əhaliyə səhiyyə və sosial xidmətlər göstərilməsi sahəsində 4037 (ötən ilin müvafiq dövrü ilə müqayisədə 2 faiz çox), dövlət qulluğu sahəsində 494 qadın çalışır. Mədəniyyət müəssisələrində rəhbər vəzifələrin 37-ni qadınlar tutur. Bunlarla yanaşı, ölkədə qadınlarla bağlı qəbul edilən qərarlar, təkmilləşdirilən hüquqi təchizatlar nəticəsində muxtar respublikanın ictimai-siyasi həyatında qadınların fəallığı nəzərəçarpacaq dərəcədə artıb.

Görülən işlər, müvafiq sahədə həyata keçirilən tədbirlər qadınların cəmiyyətin bütün sahələrində, ölkənin idarəçilik sistemində və inkişafında yaxından iştirak etmələri üçün gələcəkdə daha da uğurlu nəticələrin əldə olunmasına öz əhəmiyyətli təsirini göstərəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## İməcilikdə 13 mindən artıq meşə, meyvə ağacı, gül və bəzək, üzüm kolları əkilib



***Noyabr ayının 27-də muxtar respublikada keçirilmiş iməciliklərdə 13 mindən artıq meşə, meyvə ağacı, gül və bəzək, üzüm kolları əkilib.***

Naxçıvan şəhərində Uzunoba Su Anbarının kənarındakı 1 hektarlıq yeni bağda 650 meyvə, yaxınlıqdakı 2 hektarlıq ərazidə isə bərpa məqsədilə 800 meyvə və 100 meşə ağacı, Naxçıvan-Sədərək magistral yolunun kənarlarındakı yaşıllıq sahələrində bərpa məqsədilə 80 meyvə, 370 meşə, 70 həmişəyaşıl ağac, Naxçıvan şəhərindəki digər iməcilik ərazilərində, ümumilikdə, 100 meyvə, 20 həmişəyaşıl ağac və 440 gül kolu əkilib, ahıl vətəndaşın evində təmizlik işləri aparılıb. Naxçıvan-Sədərək magistral avtomobil yolunun kənarlarında 2000 meşə ağacı, Çərçiboğan kəndindəki yeni tikilmiş sosial obyektlərin ətrafındakı 1 hektarlıq bağda 380 meyvə, Yuxarı Daşarx kəndindəki 5 hektarlıq bağda isə bərpa məqsədilə 300 meyvə ağacı əkilib.

Həmin gün Babək rayonunun Nehrəm-Çeşməbasar yolundakı iməcilik ərazilərində bərpa məqsədilə 500 meşə, Güznüt kəndində isə 700 meyvə ağacı, Naxçıvan-Ordubad magistral yolunun kənarlarında 400 həmişəyaşıl ağac, 2 hektara yaxın ərazidə isə bərpa məqsədilə, ümumilikdə, 700 meyvə ağacı əkilib. Culfa rayonunda Darıdağ Arsenli Su Müalicəxanasına gedən yolun kənarlarındakı 0,4 hektarlıq ərazidə 400 meşə ağacı, 0,3 hektarlıq ərazidə isə 300 üzüm tingi torpağa basdırılıb.

Kəngərli rayonunun Qıvraq-Püsyan avtomobil yolunun kənarlarındakı 7 hektarlıq ərazidə bərpa məqsədilə 1200 meyvə və 300 meşə ağacı, Şahbuz rayonunun Sələsüz kəndindəki 0,7 hektarlıq yeni salınmış bağda 550 meyvə ağacı və 700 üzüm tingi, Heydər Əliyev Su Anbarının yaxınlığındakı 0,8 hektarlıq ərazidə bərpa məqsədilə 250 meyvə ağacı, Sədərək rayonunun Heydərabad qəsəbəsindəki 3 hektarlıq bağda isə bərpa məqsədilə 1700 meyvə ağacı əkilib.

Qeyd edək ki, noyabrın 27-də keçirilən iməciliklərdə yaşıllıqlara aqrotexniki qulluğun göstərilməsi də diqqətdə saxlanılıb.

**Xəbərlər şöbəsi**

2021-ci il "Nizami Gəncəvi ili"dir

## Nizami Gəncəvi yaradıcılığında ailə-məişət məsələsi



*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2021-ci ili ölkəmizdə "Nizami Gəncəvi ili" elan etməsi Nizami Gəncəvi yaradıcılığına Azərbaycançılıq və müstəqil dövlətçilik işığında yenidən nəzər salmağın vacib olduğunu göstərir.*

Azərbaycançılığın əsas komponentlərindən biri milli-mənəvi dəyərlərdir. Milli-mənəvi dəyərlərin daşıyıcılarından biri isə ailə-məişət mərasimləridir. Azərbaycan ailə-məişət mərasimləri ümumşərq, ümumtürk-müsəlman xarakteri daşısa da, sırf Azərbaycançılığı, özünəməxsusluğu da özündə əks etdirən mərasimlərdəndir. Dahi şəxsiyyətin yaradıcılığında da ailə məişət mərasimləri ilə bağlı çoxlu məqamlara rast gəlirik. Ailə-məişət mərasimləri içərisində toyla bağlı mərasimlər mühüm yer tutur. Toyla bağlı mərasimlər haqqında dahi Nizami geniş şəkildə bəhs etmişdir. Belə mərasimlərdən əsası nişan mərasimidir ki, bu haqda dahi Nizami yazır ki, gözəl məclisə yaraşan qız nişanlandır. Nişan mərasimindən sonra toya hazırlıq gedir ki, burada əsas məsələlərdən biri də qızın anasına çatacaq "süd pulu" məsələsidir. Bu, Naxçıvanda el arasında "başlıq" kimi də qeyd edilir. Bu haqda dahi Nizami yazır:

*Pul tufanı asimana qalxdı,*
*Süd haqqı (başlıq) söhbəti cana yatdı.*

Buradan da aydın olur ki, razılaşma hər iki tərəf arasındakı söhbət əsasında əldə edilir. Bu danışıqlarda isə hər iki tərəfin yalnız kişiləri iştirak edirlər.

Ağdam bölgəsində müasir dövrdə bu cür razılaşma "kəmləşmə" adlanır. Bu adətin təkcə Azərbaycan üçün deyil, eyni zamanda digər türkdilli xalqlara da xarakterik olması, hətta bir sıra Qafqaz xalqlarında və ərəb dünyasında da mövcudluğu məlum faktdır.

Ailə-məişət mərasimlərindən biri də "xınayaxdı" mərasimidir. Orta əsr mənbələrində bu adətin mövcudluğu haqqında geniş məlumatlar vardır. İcra olunan "xınayaxdı" barədə dahi Nizami Gəncəvi yaradıcılığında verilən məlumatda deyilir: Şahın yaxın adamlarının əlindən bir ayadək toy rəngi (yəni xına) getmədi.

Ailənin qurulmasında kəbinin əsas rol oynadığını bilirik. Kəbin dini nikah hesab edilir. Kəbinin kəsilməsi bu gün də Naxçıvan diyarında öz aktuallığını qoruyub saxlamaqdadır. Ədibin "Xosrov və Şirin" poemasında kəbinsiz ailə qurulmasının yaxşı əlamət sayılmadığını görürük.

Nizami Gəncəvi öz yaradıcılığında məişət mərasimlərinin bir parçası olan dəfn və yas mərasimlərinə də toxunmuşdur. Dəfn adətini bəzi hallarda mərhumun dünyasını dəyişməmişdən öncə etdiyi vəsiyyətinə görə həyata keçirərdilər. "İsgəndərnamə" də İsgəndər dünyasını dəyişəndə onu yaxın adamına vəsiyyət etdiyinin şahidi oluruq. Ümumiyyətlə, mərhum dünyasını dəyişdikdən sonra 3 və ya 7 gün ona yas saxlanıldığını görürük. "Xosrov və Şirin" poemasında Bəhramın 3 gün yas saxladığına şahid oluruq. Mütəfəkkir şair daha bir yerdə "ayinləri tamam gözləməklə onun yasını saxladılar" ifadəsini işlətmişdir. Yas mərasimində kütləvi ağlaşmaq və şivən haqqında da geniş məlumat verilmişdir. Topladığımız etnoqrafik çöl materiallarına görə, Naxçıvanda da kütləvi ağlaşma "şivən" adlanır.

Öz əsərlərində qonaqpərvərlik kimi nəcib bir adət haqqında dönə-dönə söhbət açan dahi şair "Yeddi gözəl" əsərində yazır:

*Bağ gülü kimi qonaqsevər idi,*
*Qönçədəki qızılgül kimi gülərdi.*
*Onun bir hazır qonaq sarayı vardı*
*Ki, boyu yerdən Süreyyaya ucalırdı.*
*Süfrə açıb büsat qurardı,*
*Lütflə başlənmiş xidmətçilər saxlardı.*
*Kim gəlsəydi, atının cilovunu tutardılar,*
*Qaydayla süfrə açardılar.*
*Ona layiq mehmannəvazlıq edərdilər,*
*Onun öz şanına görə qonaqluq verərdilər.*

Göründüyü kimi, şair burada bir nəfərin simasında bütöv bir xalqın qonaqsevərliyini tərənnüm etmiş, qonaqpərvərliyə xas olan mühüm cəhətləri yığcam, lakin əsaslı şəkildə işıqlandırmışdır. Şairin təsvirindən aydın olur ki, qonaqlar üçün məxsusi yer ayrılır, süfrə açılır, büsat qurulur. Evə təşrif buyuran qonağın xüsusi hörmət əlaməti olaraq ayrıca otağa dəvət edilməsi məsələsinə toxunan Nizami Gəncəvi yazır: "Qonaqlar kimi içəriyə, eyvana apardı". Bu misra hər bir ailədə qonağın diqqət mərkəzində olduğunu göstərir. Elə bu təsvirdə Nizami fikrinə davam edərək qonağın və ev sahibinin bir-birinə hədiyyələr təqdim etməsindən söhbət açır. Müəllifin, eyni zamanda qonaqların rahatlığı üçün ayrılmış guşənin olduğunu qeyd etməsi o dövrün qonaqpərvərlik adətinə xas olan xüsusiyyətləri anlamağımız üçün kifayət qədər əsas verir. Qonaqpərvərliyin geniş tətbiqinə meyli səciyyəvi bir hal kimi dəyərləndirən Nizaminin əsərlərində qonaqlıq süfrəsinin təsvirinə tez-tez rast gəlmək olur. "Xosrov və Şirin" də Məhinbanunun Xosrovu, "Leyli və Məcnun" da Leylinin atasının gələn elçiləri qarşılaması və sair bu kimi təsvirlərə yer vermişdir.

Nizami Gəncəvinin təsvirlərində qonaqpərvərlik Azərbaycan xalqının məişətində adi hal alan adət kimi açıq-aydın nəzərə çarpır və şair ona böyük rəğbət bəslədiyini aydın büruzə verir.

Qeyd edək ki, Nizami yaradıcılığında dini bayramlara az da olsa, toxunmuşdur. Belə ki, dahi mütəfəkkir Qurban bayramının adını çəkmiş, fəqət bu bayram haqqında ətraflı heç nə deməmişdir. Şair "Özün bil, bu bayram, bu da ki, qurban", – deməklə kifayətlənmişdir. Bu ifadə ilə o, Qurban bayramının yalnız mövcudluğunu təsdiq etmişdir.

Dahi mütəfəkkir əsərlərində oruclуq haqqında da bəzi məsələlərə toxunmuşdur.

Nizami Gəncəvi yazırdı:

*Bayram axşamı üçün elə bir hilal (təzə ay) çıxır*
*Ki, qaranlığın örtüyündə*
*İncəliyindən heç kəs onu görə bilməsin.*

Bayram dedikdə, burada müəllif Ramazan və ya Orucluq bayramını nəzərdə tutmuşdur. Belə ki, Orucluq bayramının axşamı birgecəlik Ay (hilal) üçün baxarlar, əgər Ay görünsə, sabahı bayram edərlər.

Bundan əlavə, dahi Nizami orucun, el dili ilə desək, iftarın açılması məsələsinə də toxunaraq yazır:

*Hər gün yoldan ötən bir müsafir*
*Onun yanında dayanardı.*
*Lazım olan yeməklər gətirərdi ki,*
*Balkə, o nəzirlə orucunu açsın.*

***Beləliklə, əsrlərboyu formalaşmış Azərbaycan ailə-məişət mərasimləri neçə-neçə nəsilləri milli ənənələrə hörmət ruhunda böyüdərək, Azərbaycançılıq ideyalarının bu günə gəlib çıxmasında mühüm rol oynamış, dünya poeziya kəhkəşanının sönməz Günəşi – dahi Nizaminin irsi də bu müqəddəs mərama xidmət etmişdir.***

**Asəf ORUCOV**
***AMEA Naxçıvan Bölməsinin dosenti***

## Naxçıvan Muxtar Respublikası üzrə 29 noyabr 2021-ci il tarixə taxıl səpininin gedişinə dair məlumat

hektarla

| S/№ | Şəhər və rayonlar | Səpilən sahə | o cümlədən | |
|---|---|---|---|---|
| | | | buğda | arpa |
| 1. | Şərur rayonu | 1903 | 1578 | 325 |
| 2. | Babək rayonu | 5531 | 2719 | 2812 |
| 3. | Ordubad rayonu | 429 | 74 | 355 |
| 4. | Culfa rayonu | 2216 | 1627 | 589 |
| 5. | Kəngərli rayonu | 3778 | 1835 | 1943 |
| 6. | Şahbuz rayonu | 330 | 180 | 150 |
| 7. | Sədərək rayonu | 1489 | 224 | 1265 |
| 8. | Naxçıvan şəhəri | 313 | 204 | 109 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **15989** | **8441** | **7548** |

## İkinci turun oyunları keçirilib



*Futbol üzrə Azərbaycan Region Liqasının Naxçıvan zonasında ikinci turun oyunları keçirilib.*

İlk turda böyük hesablı qələbə qazanan Şərurun "Arpaçay" komandası doğma meydanda Babəkin eyniadlı komandasını sınağa çəkib. Görüş meydan sahiblərinin 4:0 hesablı qələbəsi ilə başa çatıb. Culfanın "Əlincə" komandası isə sədərəkli həmkarlarından üstün olub – 10:1.

Çempionatın favoriti "Araz-Naxçıvan" muxtar respublika stadionunda Şahbuzun "Batabat" komandası ilə üz-üzə gəlib. Üstün oyun sərgiləyən "qırmızı-ağlar" meydanı böyük hesablı qələbə ilə tərk ediblər – 12:0. Uzunoba Təlim-Məşq İdman Kompleksində keçirilən günün digər görüşündə "Dübəndi" və "Kəngərli" komandaları qarşılaşıb. Gərgin keçən oyunda Ordubad komandası qələbə qazanıb – 6:3.

İlk iki turdan sonra turnir cədvəlinə 6 xalla "Araz-Naxçıvan" başçılıq edir. Eyni xala malik "Arpaçay" ikinci, 3 xalı olan "Əlincə" isə üçüncü yerdə qərarlaşıb.

✍ **Ceyhun MƏMMƏDOV**

Mütəxəssis sözü

## Daşınmaz əmlak sığortası haqqında nə bilirik

*Sığorta iqtisadi maraqlardan bilavasitə qaynaqlanan ictimai münasibətlər sistemidir. Hazırda dünyada saysız-hesabsız sığorta məhsulları ictimaiyyətə təqdim olunmaqdadır. Həmin sığorta məhsullarının da hər birinin özünəməxsus önəm və mahiyyəti var.*

Azərbaycanda, həmçinin muxtar respublikamızda sığorta sektorunda, xüsusilə də son dövrlər daha aktual istiqamət məhz "Daşınmaz əmlakın icbari sığortası" növüdür. "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanununda da qeyd edildiyi kimi, bu sığorta növü daşınmaz əmlakın yanğın və ya digər hadisələr nəticəsində zədələnməsi, məhv olması, yaxud hər hansı formada itkisi ilə bağlı dəymiş zərərin ödənilməsi məqsədilə tətbiq edilir. Bura yalnız hüquqi yox, eyni zamanda fiziki şəxslərə məxsus tikililər, yaşayış və qeyri-yaşayış sahələri, yaşayış evləri və binalarla yanaşı, həm də dövlət əmlakları daxildir. Geniş trayektoriyalı predmet əhatəsinə malik olan bu sığorta növü icbari olaraq tətbiq edilir, yəni məcburidir. Bu məcburiyyət isə sosial ehtiyac əhəmiyyətlidir. Çünki burada risklər tənzimlənir və ehtimal olunan potensial itki minimuma endirilir və ya tamamilə aradan qaldırılır. Göründüyü kimi, sosial rifahın təmin olunması bu sığorta növünün prioritet predmetidir.

"Daşınmaz əmlakın icbari sığortası" növü üzrə sığorta hadisəsi hesab olunan hallara diqqət yetirək:

*– yanğın və ya ildırım düşməsi;*
*– məişətdə və istehsalatda istifadə olunan qazın partlayışı;*
*– elektrik naqillərində baş verən qısaqapanma;*
*– buxar qazanlarının, qaz anbarlarının, qaz kəmərlərinin, maşınların, aparatların və digər oxşar qurğuların və ya cihazların partlayışı;*
*– su, istilik, kanalizasiya kəmərlərinin və yanğınsöndürmə sistemlərinin qəzası, eyni zamanda qonşu tikililərdən, yaşayış və qeyri-yaşayış sahələrindən, yaşayış evlərindən və binalarından, mənzillərdən, otaqlardan daxil olan su nəticəsində subasma;*
*– hər hansı predmetin və ya onun hissələrinin düşməsi, atılması, dəyməsi, dağılması, axıdılması və digər bu kimi formalarda təsiri;*
*– yerüstü nəqliyyat vasitələrinin dəyməsi;*
*– təbii fəlakətlər – zəlzələ, vulkan, fırtına, qasırğa, tufan, dolu, sel, daşqın, leysan və yer sürüşməsi.*

Bu sığorta növünün tarif və təminat tutumu da əhəmiyyətli dərəcədə münasibdir. Belə ki, Bakı şəhərində yerləşən daşınmaz əmlak üzrə sığortahaqqı 50, sığorta təminatı isə 25 min manatdır. Gəncə, Sumqayıt və Naxçıvan şəhərlərində isə sığortahaqqı 40, sığorta təminatı isə 20 min manat, digər yaşayış məntəqələrində yerləşən daşınmaz əmlak üzrə sığortahaqqı 30, sığorta təminatı isə 15 min manatdır.

Hər birimiz daşınmaz əmlaklara zərər yetirən genişmiqyaslı yanğın hadisələri, təbii fəlakətlər və başqa xoşagəlməz hadisələr barədə məlumatlıyıq. Bu hadisələr bizim illərlə topladığımız, əldə etdiyimiz əmlakımızı bir anda tamamilə itirməyimizə gətirib çıxara bilər.

Əslində, məhz bu kimi hallarda vətəndaş və ya sahibkar əlavə xərc ilə üzləşərək çarəsiz qalmamaq üçün daşınmaz əmlakını vaxtında sığortalamalı, zərərini sığorta ilə qarşılamalıdır. Hər il sığortaçılar tərəfindən yüzlərlə zərər tənzimlənir, sığorta ödənişləri həyata keçirilir. Amma məsələnin digər tərəfini də yaddan çıxarmaq olmaz. Bəzən sığorta şirkətləri ilə vətəndaşlar arasında hadisə zamanı dəymiş zərərlə, hesablanmış sığortahaqqı ilə bağlı anlaşılmazlıqlar yarana bilir. Ciddi mübahisələr yarandığı hallarda sığortaçı vəziyyəti rəsmi olaraq izah edib şirkətin mövqeyini əsaslandırmalıdır. Əgər sığortaçının mövqeyi ilə razılaşmırsınızsa, məsələnin araşdırılması üçün sığorta nəzarəti orqanına müraciət edə bilərsiniz. Nəzarət mexanizmi ondan ötrüdür ki, siz öz vəsaitlərinizi etibarlı sığortaçılara əmanət edəsiniz, bu vəsaitlər elə idarə olunsun ki, şirkətin lazımi vaxtda lazımi məbləğdə ödəniş etmək qabiliyyəti olsun, sığortaçı əsassız olaraq sığorta ödənişini həyata keçirməkdən imtina etməsin və sair.

Muxtar respublika sakinlərinin diqqətinə çatdırmaq istəyirik ki, regionda sığorta bazarlarının fəaliyyətinə nəzarəti Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsi həyata keçirdiyindən sığorta sahəsində yaranan mübahisəli məsələlərlə əlaqədar idarəmizə yazılı müraciət edə bilərsiniz.

Gəlin sığortadan faydalanaraq əldə etdiklərimizi birdəfəlik itirilmə ehtimalı ilə deyil, onun yenidən bərpa ola biləcəyi ümidi ilə yaşayaq.

**Nərgiz ALLAHVERDİYEVA**
***Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsinin əməkdaşı***

## Bodibildinqdə ilk ölkə çempionluğu titulu

Bakı şəhərində bodibildinq, klassik bodibildinq, mens fizik və fitnes üzrə Azərbaycan çempionatı keçirilib. Turnir iki il öncə "mens fizik" növündə ölkə çempionu olan, şəhid baş leytenant Muxtar Qasımlının xatirəsinə həsr olunub. 40-a yaxın idmançının qatıldığı yarışda muxtar respublikanı Həsənqulu Abdullayev təmsil edib.

İdmançımız ona bəslənilən ümidləri doğruldub. Belə ki, klassik bodibildinqdə hündürlüyü 175 santimetrdən yuxarı idmançılar kateqoriyasında ölkə birincisi olan Həsənqulu Abdullayev bu növdə, həmçinin Azərbaycan çempionatının mütləq qalibi adına layiq görülüb. İdmançımız diplom, medal və kuboklarla təltif olunub.

Qeyd edək ki, Naxçıvan idmanında bodibildinq üzrə ilk ölkə çempionluğu titulunu qazanan Həsənqulu Abdullayev bu uğurla yığma komandanın heyətinə cəlb olunaraq qarşıdakı Avropa çempionatında iştirak etmək hüququ əldə edib.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

**İtmişdir**

Kazımlı Vaqif Kamil oğlunun adına olan 75-BH-809 nömrəli avtomobilin texniki pasportu itdiyinden etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Güntac Şahməmmədli
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 999